*UOT 37*

***T.Z.Piriyeva***
*Bakı Qızlar Universiteti*
*piriyeva.tarana.zakir@gmail.com*

# PEŞƏ TƏHSİLİ MÜƏSSİSƏLƏRİNDƏ TƏTBİQ EDİLƏ BİLƏCƏK ƏMƏKDAŞLIQ MODELLƏRİ

***Açar sözlər:*** *peşə təhsili pilləsi, əməkdaşlıq modelləri, düzgün strategiya*

Məqalədə peşə təhsili pilləsi üzrə əməkdaşlıq modellərindən bəhs edilmiş, səmərəli və effektiv şəkildə həyata keçirilə biləcək əməkdaşlıq modellərinə diqqət yetirilmişdir. Xüsusilə peşə təhsili müəssisələrində əməkdaşlığın inkişaf tendensiyaları şərh edilmişdir. Həm kəmiyyət, həm də keyfiyyət baxımından ixtisaslı işçi qüvvəsini formalaşdırmaqda, sənayenin inkişafı və genişləndirilməsində əməkdaşlığın təsir imkanları, düzgün təşkil edilmiş əməkdaşlığın daha az və ya eyni xərclərlə səmərəliliyin və məhsuldarlığın artırılması vasitəsi olması əsaslandırılmışdır. İqtisadiyyatın mərkəzində dayanan məşğulluq siyasətinin əsas komponentlərindən olan daha çox və daha yaxşı iş yerlərinin yaradılmasında mühüm rol oynayan əməkdaşlıq modellərinin təsnifatı verilmiş və müəyyən cəhətləri təsvir edilmişdir. Daima inkişafda olan cəmiyyətdə qüvvələrin birləşməsinin daha səmərəli nəticələrə səbəb olacağını nəzərə alaraq, əməkdaşlığın məşğulluq səviyyəsinin artırılmasına təsiri mexanizminin elementləri və əməkdaşlığın digər zəruri üstünlükləri vurğulanmışdır.

***Т.З.Пириева***

## МОДЕЛИ СОТРУДНИЧЕСТВА, КОТОРЫЕ МОЖНО ПРИМЕНЯТЬ В ПРОФЕССИОНАЛЬНЫХ ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

***Ключевые слова***: *уровень профессионального образования, модели сотрудничества, правильная стратегия*

В данной статье были рассмотрены модели сотрудничества на уровне профессионального образования, уделено внимание сотрудничеству, которое может быть реализовано эффективно и результативно. В частности описаны тенденции развития сотрудничества в учреждениях профессионального образования. Утверждалось, что эффективность кооперации в формировании квалифицированной рабочей силы с точки зрения, как количества, так и качества, в развитии и расширении промышленности и что правильно организованная кооперация является средством повышения эффективности и производительности с меньшими или теми же затратами. Дана классификация моделей сотрудничества, играющих важную роль в создании большего количества и более качественных рабочих мест, которые являются основными составляющими политики занятости, лежащей в основе экономики, и описаны отдельные аспекты. С учетом того, что сочетание сил в постоянно

развивающемся обществе приведет к более эффективным результатам, выделены элементы механизма воздействия сотрудничества на повышение уровня занятости и другие необходимые преимущества сотрудничества.

**T.Z.Piriyeva**

## COOPERATION MODELS THAT CAN BE APPLIED IN VOCATIONAL EDUCATION INSTITUTIONS

**Keywords:** *level of professional education, cooperation models, correct strategy*

In this article, have been discussed the models of cooperation on the level of vocational education, attention has been paid to the models of cooperation that can be implemented efficiently and effectively. In particular, this article describes the development trends of cooperation in vocational education institutions.It has been argued that the effectiveness of cooperation in forming a skilled workforce, in terms of both quantity and quality, in the development and expansion of industry, and that properly organized cooperation is a means of increasing efficiency and productivity with less or the same costs. A classification of cooperation models that play an important role in creating more and better jobs, which are the main components of the employment policy at the heart of the economy, is given and certain aspects are described. Taking into account that the combination of forces in a constantly developing society will lead to more efficient results, the elements of the mechanism of the effect of cooperation on increasing the level of employment and other necessary advantages of cooperation have been highlighted.

Əməkdaşlıq işçilərin və ya onların nümayəndələrinin, işəgötürənlərin, peşə təhsili müəssisələrinin, yerli özünüidarəetmə orqanlarının əlaqələndirilməsinə yönəlmiş münasibətlər sistemidir. Yalnız bazar cəmiyyətində mövcud olan əməkdaşlıq, müxtəlif sosial qrupların, ilk növbədə işçilərin və işəgötürənlərin əsas maraqlarının optimal tarazlığını təmin edən sosial və əmək münasibətlərinin xüsusi bir növüdür və əməkdaşlığın subyektləri dövlət, o cümlədən peşə təhsili müəssisələri, həmkarlar ittifaqları, sahibkarlar, işçilər, peşə təhsili müəssisəsinin məzunları və mülkiyyətçilərdir.

Əməkdaşlıq bölgələrarası, regional, sektoral, ərazi, yerli (təşkilat səviyyəsində) səviyyələrdə həyata keçirilir. Sosial dövlət sosial əməkdaşlığın inkişafı ilə xarakterizə olunur. Ölkələrin uzunmüddətli sosial-iqtisadi və siyasi inkişafının nəticəsi olan, milli-mədəni xüsusiyyətləri və sosial münasibətlərin spesifik formaları ilə müəyyən edilən müxtəlif sosial əməkdaşlıq modelləri mövcuddur.

Hal-hazırda fərqli dövlətlərdə inkişaf etmiş və iqtisadi, sosial, əmək və etnik xüsusiyyətlərə əsaslanan əməkdaşlıq modellərini müəyyən etməyin bir neçə yolu vardır. Klassik bipartizm və tripartizm modelləri kimi əsas modelləri

qeyd etməyə dəyər ki, burada sosial qarşılıqlı təsir subyektlərinin sayı və onların idarə olunmasının əsas mexanizmləri fərqlidir [7, s.8].




**Şəkil 1. Partnyorluğun subyektləri**

Qlobal tədqiqatlar göstərir ki, dövlət qanunverici və ekspert funksiyasını yerinə yetirən əməkdaşlıq münasibətlərində demək olar ki, hər yerdə iştirak edir, lakin fərqli dövlətlərdə qarşılıqlı proseslərdə iştirak səviyyəsi fərqlidir [2, s.74].

Sosial və əmək münasibətlərinin tənzimlənməsində dövlətin rolunun həlledici olmadığı ölkələrdə (Böyük Britaniya, Yaponiya, ABŞ, Kanada) əməkdaşlıqlar iki tərəfin müqavilə prosesində iştirak etdiyi zaman bipartizm prinsipi üzərində qurulur: milli həmkarlar ittifaqları, işçilərin və işəgötürən birliklərin nümayəndələri olaraq dövlət onlarla aralarındakı danışıqlar prosesini asanlaşdırmaq funksiyasını öz üzərinə götürür [4, s.127].

Əksinə, tripartizm tam tərəf kimi müqavilələrin bağlanması prosesində peşə təhsil müəssisələrinin birbaşa iştirakını nəzərdə tutur. Bu model Avropa Birliyi ölkələrində – İsveç, Fransa, Norveç, Almaniya, Finlandiya, Avstriya və s. kimi ölkələrdə tripartizm modeli tətbiq edilir. Məsələn, Şimali Avropa ölkələrində (Finlandiya, İsveç, Norveç) müqavilə tənzimlənməsi dövlət, sektoral və yerli səviyyədə, Fransa və Almaniyada isə yalnız sektoral və regional səviyyədə həyata keçirilir.

İşçilərin maraqlarını təmsil edən dövlət, işəgötürənlər (onların birlikləri) və həmkarlar ittifaqları arasında üçtərəfli qarşılıqlı əlaqə təcrübəsinə əsaslanan tripartizm modeli, Rusiya bazar iqtisadiyyatında geniş yayılmışdır.

Əməkdaşlıq modellərinin müəyyən edilməsinə digər yanaşmalar çərçivəsində, elmi və praktik baxımdan ən maraqlısı aşağıdakılardır:

- *uyğunluq;*
- *mühafizəkar-liberal;*
- *plüralist əməkdaşlıq modelləri* [1, s.128].

Uyğunluq modelində ortaqlığın iştirakçılarını üç tərəf: sahibkarlar, peşə təhsili müəssisələri və həmkarlar ittifaqları təşkil edir. Bu model Hollandiya, Skandinaviya, Avstraliya kimi ölkələr üçün tipikdir [2, s.58].

Mühafizəkar-liberal model həmkarlar ittifaqlarının rolunun azaldığını güman edir və Fransada olduqca aydın şəkildə özünü büruzə verir.

Baxmayaraq ki, həmkarlar ittifaqı işçilərin nümayəndəlik orqanıdır, işçilər öz əmək hüquqlarının müdafiəsində həmişə mühüm rol oynayırlar.

Son zamanlar müxtəlif ölkələrdə həmkarlar ittifaqı üzvlərinin sayı azalmaqdadır.




**Şəkil 2. 1996-2017-ci illər ərzində həmkarlar ittifaqı üzvlərinin sayında %-lə azalmalar** [3, s.28].

Əməkdaşlığın plüralist modelində tərəflər arasında əməkdaşlıq yerli səviyyəyə gətirilir. Plüralist model Yaponiya, Böyük Britaniya, ABŞ və Kanadadakı müəssisələr üçün xarakterik olan müqavilə prosesinin mərkəzləşdirilməsini aradan qaldırmağı nəzərdə tutur [4, s.62].

İşçilər qabaqcadan icazə almadan könüllü surətdə həmkarlar ittifaqları yaratmaq, habelə öz qanuni mənafelərini, əmək, sosial, iqtisadi hüquqlarını müdafiə etmək üçün həmkarlar ittifaqlarına daxil olmaq və həmkarlar ittifaqı fəaliyyəti ilə məşğul olmaq hüququna malikdirlər [6].

İşçilərin müəssisə idarəçiliyində iştirak dərəcəsi və forması meyarına görə əməkdaşlığın üç modeli vardır. Bu modellər aşağıdakı kimi xarakterizə

edilir:

✓ Təmsilçi modelində, peşə təhsili müəssisələri təmsilçilik əsasında idarəetmədə iştirak edirlər. Direktorlar və müşahidə şuralarına seçilən peşə təhsili müəssisələrinin nümayəndələri, səhmdarların nümayəndələri ilə eyni hüquq və vəzifələrə malikdirlər. Fransa, İspaniya, Yunanıstan, Lüksemburq, İrlandiyada ictimai sektorda, peşə təhsili müəssisələrinin nümayəndələri, şirkət işlərində hər hansı bir böyük dəyişiklik menecerləri ilə bərabər şirkətin idarə olunmasında iştirak edirlər. Norveçdə nümayəndəliyin təmsilçiliyi azdır, lakin qərar qəbul edilməsində onların iştirak dərəcəsi daha çoxdur ki, bu da hər hansı bir dəyişiklikdən əvvəl müşahidə şurasının və müəssisənin idarə heyətinin birgə iclasında qəbul edilir. Danışıqlara əlavə olaraq nümayəndələr müəssisə, habelə auditorlar, həmçinin faktura, proqnozlaşdırılan xərclər, hesabatlar barədə məlumat əldə etmək hüququna malikdirlər.

Finlandiya, İsveç, Alman modelləri əksər hallarda menecerlərin qərar qəbul etməsini məhdudlaşdırır, nümayəndələr ilə danışıqlar bitməmiş qəbul edildikdə və onların maraqlarına zidd olan bir qərarı qadağan edə bilərlər.

✓ Birbaşa təmsilçi demokratiya modeli: idarəetmədə iştirak ictimai təşkilatlar və həmkarlar ittifaqları vasitəsi ilə həyata keçirilir. Müəssisələr kollektiv müqavilələr bağlayır, məcburi əmək arbitrajını və vasitəçiliyi təmin edir. Dövlət kollektiv müqavilə mərhələsinə müdaxilə etmir, lakin tərəflər arasında əmək münaqişəsi yarandıqda fəal şəkildə təsir göstərir. Bu model Kanada, Yaponiya, Fransa üçün tipikdir. Məsələn, Kanadada Əmək Məcəlləsinə əsasən, Dövlətin vasitəçilik və barışıq xidmətləri Əmək Departamenti daxilində fəaliyyət göstərir. Barışıq prosedurundan keçmədən tərəflər tətil və ya lokaut tətbiq edə bilməzlər.

✓ Plüralist model nümayəndələrin idarəetmədə dolayı iştirakı ilə xarakterizə olunur (Böyük Britaniya, ABŞ). Kollektiv müqavilə yalnız müəssisə səviyyəsində aparılır. Milli İstehsalçılar Birliyi və ABŞ Ticarət Palatası qanunverici və siyasi fəaliyyətlərdə iştirak edir, sahibkarlar üçün təlimatlar tövsiyə edir, lakin danışıqlara müdaxilə etmirlər. ABŞ-də kollektiv əmək mübahisəsi, Federal Vasitəçilik və Barışıq Xidməti və ya özəl bir təşkilat Amerika Arbitrajlar Birliyi tərəfindən nəzərdən keçirilir.

Ölkələrin heç birində bu əməkdaşlıq modelləri təmiz formada təqdim edilmir. Maraqların uzlaşması sosial dialoq yolu ilə baş verir. Əməkdaşlığın yaranmasının və inkişafının şərtlərindən biri 1919-cu ildə Beynəlxalq Əmək Təşkilatının (BƏT) yaranmasıdır. Əməkdaşlıq sistemi İkinci Dünya Müharibəsindən sonra fəal şəkildə inkişaf etməyə başlamışdır. Əməkdaşlıq əmək qanunvericiliyində qanunla təsbit edilmişdir, dövlət sosial siyasətinin bir aləti və sosial bazar iqtisadiyyatı şəraitində siyasi və vətəndaş azadlıqları şəraitində sosial problemləri həll etmək üçün bir yoldur. Əməkdaşlıq sosial qarşıdurmaya alternativdir, müxtəlif sosial qrupların maraqlarını

uyğunlaşdırmağın bir yoludur.

BƏT-nin uzunmüddətli işi, dünya təcrübəsi göstərir ki, əməkdaşlıq yalnız siyasi və iqtisadi inkişafı sabitləşdirmək üçün bir vasitə deyildir. Bazar iqtisadiyyatının səmərəliliyinin şərtlərindən biri əmək münasibətlərində tərəflərin qarşılıqlı hörmətinə, bir-birinin problemlərini başa düşməyə və kompromisli həllər tapmağa əsaslanan əməkdaşlıq üçün şəraitin yaradılması və saxlanılmasıdır. İqtisadi cəhətdən bərabər olmayan əməkdaşlar arasındakı münasibətləri "sosial dialoq" ifadəsi ilə adlandırmaq daha dəqiq olardı [5, s.124].

Hal-hazırda bütün səviyyələrdə əməkdaşlıq iştirakçılarının gücləndirilməsi və qarşılıqlı əlaqəsi, ən vacib sosial-iqtisadi problemlərin müqavilələrə daxil edilməsi, öhdəliklərinin yerinə yetirilməsi, imzalanmış müqavilələrin yerinə yetirilməsi üçün tərəflərin məsuliyyətinin artırılması, yəni əməkdaşlığın səmərəliliyinin artırılması məsələsi xüsusilə aktualdır. Bu problem bütün tərəflərə eyni dərəcədə şamil olunur və bunun həllinə ehtiyac vardır.

Təəssüf ki, son illərin təcrübəsi həmkarlar ittifaqlarını inandırdı ki, həm hökumətdə, həm də sahibkarlar arasında səmərəli əməkdaşlıq prinsipləri əsasında münasibətlərə hazır olan nümayəndələr azdır və buna görə də həmkarlar ittifaqları onun real inkişafı üçün mübarizə aparmağı çətinləşdirir.

Bu gün iş şəraiti, əməyin mühafizəsi həmkarlar ittifaqlarının konstruktiv, israrlı mövqeyindən çox asılıdır. Əməyin mühafizəsi həmkarlar ittifaqları ilə dövlət arasında sıx qarşılıqlı əlaqənin olduğu sahədir və əməkdaşlığın bariz təzahürüdür.

İşçilərin sosial-iqtisadi və əmək hüquqlarının, mənafelərinin qorunması, o cümlədən əməyin mühafizəsi problemlərinin həllində xidmət edən əməkdaşlıq sisteminin səmərəliliyinin artırılması, həmişə qarşılıqlı əməkdaşlığı müdafiə edən həmkarlar ittifaqları, həmkarlar ittifaqları orqanları, həmkarlar ittifaqı üzvlərinin səylərinin birləşməsinə, həmrəyliyinə və fəaliyyət birliyinə bağlıdır.

Bazar strukturlarının inkişafı ilə dövlətin əmək münasibətləri sahəsindəki funksiyalarının bir hissəsi kəskin şəkildə dəyişir: keçid dövrü şəraitində dövlət əməkdaşlıq sistemində əmək münasibətlərinin tənzimlənməsinin əlaqələndiricisi və təşkilatçısı kimi çıxış edir.

Dövlətin ən vacib funksiyalarından biri, hüquqi əməkdaşlıq və sosial əməkdaşlığın təşkili formalarının inkişafı mexanizminin, əməkdaşlıq subyektləri arasında qarşılıqlı əlaqə qaydalarının və mexanizminin, ardıcıllığın əldə edilməsidir.

## ƏDƏBİYYAT


1. *Иванова Т.Н.* Социальное партнерство: Электронное учебное пособие. Тольятти: Изд-во ТГУ, 2019, 483 с.
2. *Калашников К.Н., Шаров В. В.* Трудовые отношения в России: между партнерством и конфронтацией // Социологические исследования. 2017. № 4. С. 73-81
3. *Мальцева П.В***.** Социальное партнерство на рынке труда как фактор обеспечение эффективной занятости: Дис. … канд. пед. наук. Томск, 2020, 126 с.
4. *Рыженков, А. Я.* Трудовое право России России и стран Евросоюза: учебник, ИЦ РИОР: НИЦ Инфра-М, 2012, 252 с.
5. *Зинченко Г.П.* Социальное партнерство как стратегический инструментарий управления трудовыми конфликтами в экономике: Дис. ... канд. экон. наук. Сочи, 2013, 199 с.
6. Həmkarlar ittifaqları haqqında Azərbaycan Respublikasinin Qanunu. 24.02.1994, № 792 / https://e-qanun.az/framework/8987
7. *Якимец В.Н.* Межсекторное социальное партнерство: возможности и ограничения / В.Н. Якимец. М.: РОО «Содействие сотрудничеству ин-та им. Дж. Кеннана с учеными в области социальных и гуманитарных наук», 2001, 54 с. / https://bit.ly/3EvvSWH


Redaksiyaya daxil olub 22.11.2022